# Mürsəl İrəvanlı haqqın rəhmətinə qovuşdu...



Mürsəl Həsən oğlu Rəfiyev (Mürsəl İrəvanlı) 1940-cı il iyulun 7-də Qərbi Azərbaycanın İrəvan şəhərində anadan olmuşdur. Ali təhsillidir. Moskvada M.Lomonosov adına Dövlət Universitetinin hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Universiteti bitirdikdən sonra M.Rəfiyev Qərbi Azərbaycanda hüquq sahəsində bir sıra vəzifələrdə çalışmaqla bərabər respublika radiosunda aparıcı, respublikada nəşr olunan qəzetlərdə müxbir kimi çalışmışdır. 1988-ci ildə baş verən məlum hadisələrlə əlaqədar olaraq minlərlə soydaşlarımız kimi Mürsəl İrəvanlı da erməni separatçıları tərəfindən doğma torpaqlarımızdan didərgin salınaraq, Gəncə şəhərində məskunlaşmışdır. Gəncə şəhərində məskunlaşandan sonra respublikada işıq üzü görən qəzet və jurnallarla əməkdaşlıq etməklə bərabər, «Meridian», «Dövlətçilik», «Həmrəylik», «Azad söz» qəzetlərində redaktor, redaktor müavini, xüsusi müxbir vəzifələrini layiqincə yerinə yetirmişdir.

Mürsəl İrəvanlı eyni zamanda istedadlı yazıçı və publisist idi. Onun yazdığı «Ata qatili», «Onun Qanı ürəyindədir», «Çay niyə səslənir», «Axan qanın izi ilə» əsərləri Rus, Ukrayna, Belarus, İngilis dillərinə tərcümə olunmuşdur. 1974-cü ildə Rusiyada nəşr etdirdiyi «Albalı çiçəyi» romanı M.Qorki adına mükafata layiq görülmüşdür.

M.İrəvanlı vəfat etdiyi günə qədər «Hüquq və səlahiyyət» qəzetinin baş redaktoru vəzifəsində çalışmışdır.

Mürsəl Həsən oğlu Rəfiyev (Mürsəl İrəvanlı) 2022-ci il may ayının 19-da 82 yaşında vəfat etmişdir.

Mürsəl İrəvanlı son illərdə müntəzəm olaraq "Türküstan" qəzetində tarixi, mədəni,m publisistik yazılarla çıxış edirdi.

Qələm yoldaşları şair Oruc Göyçəli, şair Ələsgər Əlioğlu, şair, araşdırmaçı jurnalist İlqar Müzəfferoğlu Mürsəl İrəvanlının ölümündən kədərləndiklərini bildirərək, oğlu Anar Rəfiyevə dərin hüznlə başsağlığı verirlər.

Allah rəhmət eləsin!

Türküstan.- 2022.- 24-30 may.- S.4.